

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 119 (21.271)

18 iyun 2015-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiymәti 20 qәpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikki "Şərəf" ordeni ilə təltif olunub. Dövlətimizin başçısı iyunun 17-də yüksək mükafatı Patrik Hikkiyə təqdim edib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 17-də Macarıstan Respublikasının Milli Assambleyasının sədri Laszlo Köverin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

* * *

Birinci Avropa Oyunlarında Azərbaycanın aktivinə daha bir qızıl medal yazılıb. İyunun 17-də Heydər Əliyev adına İdman Sarayında Azərbaycan pəhləvanı Toğrul Əsgərov bütün rəqiblərini məğlub edərək birinci Avropa Oyunlarının çempionu olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı, "Bakı-2015" birinci Avropa Oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva və ailə üzvləri final qarşılaşmasını izləyiblər.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2015-ci il 12 iyun tarixli sərəncamları ilə Azərbaycan səhiyyəsinin inkişafındakı xidmətlərinə görə bir qrup səhiyyə işçisi təltif edilmişdir. Təltif olunanlar arasında Naxçıvan Muxtar Respublikasının səhiyyə işçiləri də vardır.

**"Əməkdar Həkim"**

Bayramov Fərrux Mustafa oğlu

**"Əməkdar Tibb İşçisi"**

Hüseynova Gözəl Bəhman qızı
Qənbərova Zəhra Mirseyib qızı

**"Tərəqqi" medalı ilə**

Rzayeva Hafizə Vəli qızı
Tarverdiyeva Şəfəq Tarverdi qızı

## Heydər Əliyev adına Hərbi Lisey kursantlarının buraxılış mərasimi keçirilmişdir





İyunun 17-də Heydər Əliyev adına Hərbi Liseyin kursantlarının 2015-ci il buraxılışı münasibəti ilə tədbir keçirilmişdir.

Azərbaycan Respublikası müdafiə nazirinin müavini, Əlahiddə Ümumqoşun Ordusunun komandanı, general-leytenant Kərəm Mustafayev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbova mərasimə hazırlıq barədə raport vermişdir.

Ali Məclisin Sədri kursantları salamlamışdır.

Kursantlar orkestrin müşayiəti ilə Azərbaycan Respublikasının Dövlət Himnini ifa etmişlər.

Hərbi liseyin rəisi, polkovnik Elman Orucov çıxış edərək demişdir ki, son illər həyata keçirilən kompleks tədbirlər nəticəsində Heydər Əliyev adına Hərbi Liseyin tədris imkanları xeyli yaxşılaşdırılmış, kursantlar üçün müasir şərait yaradılmışdır. Bütün bunlar bilikli və vətənpərvər gənc zabitlərin yetişdirilməsində mühüm rol oynayır. Liseydə kursantların hərbi və elmi biliklərə yiyələnməsi ilə yanaşı, idmanın müxtəlif növləri ilə məşğul olmasına da diqqət yetirilir, onların muxtar respublikamızda keçirilən idman birinciliklərində fəal iştirakı təmin edilir. Həmçinin liseydə kursantların yaradıcılığını və fənlərə olan marağını artırmaq məqsədilə 19 dərnək fəaliyyət göstərir. Yaradılan şərait gənclərin hərb sənətinə marağını xeyli artırmışdır. 2015-2016-cı tədris ilində Heydər Əliyev adına Hərbi Liseyə qəbul olunmaq üçün 977 gənc sənəd vermiş, onlardan 603-ü qəbul imtahanlarında iştirak etmək hüququ qazanmışdır. Bununla yanaşı, kursantların mənəvi tərbiyəsini yüksəltmək məqsədi ilə Naxçıvan Dövlət Musiqili Dram Teatrı, 8 muzey və 2 kitabxana ilə müqavilə bağlanaraq onların imkanlarından da geniş istifadə olunur.

Elman Orucov yaradılan şəraitə görə kollektiv adından Ali Məclisin Sədrinə minnətdarlıq etmiş, təhsilli və vətənpərvər kursantların yetişdirilməsi istiqamətində bundan sonra da qüvvə və bacarıqlarını əsirgəməyəcəklərini bildirmişdir.

Valideyn Tofiq Nəcəfov qeyd etmişdir ki, bu gün hərbi təhsilini bitirib ali hərbi məktəbə yollanan kursantların valideynləri iftixar və qürur hissləri keçirir, övladlarının işıqlı gələcəyinə inanırlar. Çünki bu gənclər müstəqil Azərbaycanın qüdrətli ordusunun gələcək zabitləridir. Kursantların vətənpərvər, bilikli və sağlam bir gənc kimi yetişməsi üçün liseydə yaradılan müasir tədris və məişət şəraiti, bütövlükdə, Azərbaycan gəncliyinə və Azərbaycan ordusuna göstərilən diqqətin ifadəsidir.

Kursant Sənan Quliyev çıxışında bildirmişdir ki, hər bir gənc bu mötəbər hərbi təhsil müəssisəsində təhsil aldığına görə fəxr edir və özünü vətən müdafiəçisi sayır. Müasir tədris bazası olan hərbi liseydə qazanılan bilik və bacarıqlar gənclərin peşəkar zabit kimi yetişməsində müstəsna rol oynayır. Bu gün məzun olan kursantlar qarşıdakı təhsil illərində də intizamlı olacaq və yüksək bilik əldə edərək hərbi liseyin adını daim uca tutacaq, ulu öndər Heydər Əliyevin ideyalarına sadiq qalacaq, Vətənimizin xoşbəxt gələcəyi, işğal altında olan torpaqlarımızın azad olunması və müstəqilliyimizin qorunub saxlanması yolunda var qüvvə ilə çalışacaqlar.

Müəllimlərdən Məryəm Vəlibəyova demişdir ki, Heydər Əliyev adına Hərbi Lisey Azərbaycan xalqının və dövlətinin mənafeyinə xidmət edən müqəddəs vəzifəni həyata keçirir. Liseyin müəllimləri öz üzərinə düşən məsuliyyəti dərindən dərk edir, tədrisin keyfiyyətini və səviyyəsini yüksəltmək üçün səy göstərirlər. Müəllim əməyinə dövlətimiz tərəfindən verilən qiymət pedaqoji heyəti ruhlandırır, bilikli, savadlı və vətənpərvər gənclərin yetişdirilməsi işində daha səylə çalışmağa sövq edir. Heydər Əliyev adına Hərbi Liseydə çalışmaqdan, gələcəyin sərkərdələrini yetişdirmək yolunda xidmət göstərməkdən böyük qürur duyduqlarını bildirən Məryəm Vəlibəyova yaradılan müasir şəraitdən faydalanaraq milli ordumuzun kadr potensialının gücləndirilməsinə bundan sonra da öz töhfələrini verəcəklərini bildirmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Heydər Əliyev adına Hərbi Lisey kursantlarının 15-ci buraxılışı münasibətilə kursant, zabit və müəllim heyətini, tədbir iştirakçılarını təbrik edərək demişdir: Hərbi təhsil, ixtisaslı hərbi kadrların hazırlanması ordu quruculuğunun əsasını təşkil edir. Bu amili diqqət mərkəzində saxlayan ümummilli liderimiz Heydər Əliyev deyirdi ki, gəncləri, yeniyetmələri hərbi məktəblərə daxil olmaq və Silahlı Qüvvələrimizin zabit korpusunda xidmət etmək üçün hazırlamaq qarşımızda duran ən mühüm vəzifədir. İstər keçmiş Sovetlər Birliyi, istərsə də müstəqillik dövründə gənclərin hərb sənətinə yiyələnməsini prioritet sahə elan edən ulu öndərimiz bu istiqamətdə mühüm işlər görmüş, milli hərbi kadrların formalaşdırılmasının əsasını qoymuşdur.

Ali Məclisin Sədri demişdir: Ulu öndərin müəyyənləşdirdiyi ordu quruculuğu strategiyası bu gün ölkəmizdə və onun Naxçıvan Muxtar Respublikasında uğurla davam etdirilir. Muxtar respublikada yerləşən ordu, hərbi hissə və birləşmələrin döyüş hazırlığı, şəxsi heyətin xidmət şəraiti ilbəil yaxşılaşdırılır. Heydər Əliyev adına Hərbi Liseyin yaranması və keçdiyi inkişaf yolu da bu sahədə görülən işlərin tərkib hissəsi kimi mühüm əhəmiyyətə malikdir. Ötən dövrdə ölkə Prezidentinin diqqət və qayğısı ilə hərbi lisey mühüm təşkilatlanma və inkişaf yolu keçmiş, burada nümunəvi hərbi tədris sistemi, möhkəm maddi-texniki baza yaradılmışdır. 56 kursantla fəaliyyətə başlayan lisey bu gün gəncləri öz ətrafında birləşdirən mötəbər hərbi tədris müəssisəsidir. Hazırda liseydə 657 kursant təhsil alır. Ötən dövrdə hərbi liseyi bitirən kursantlardan 2072-si ali hərbi məktəblərə qəbul olunmuşdur. Liseyin məzunlarından minə yaxını Azərbaycan Respublikası Silahlı Qüvvələrində zabit kimi xidmətlərini davam etdirirlər.

Ümummilli liderimiz Heydər Əliyev deyirdi ki, ***"Hərbi peşə insandan həm fiziki hazırlıq, həm nizam-intizam, həm dövlətə, vətənə, ölkəyə, doğma torpağa sədaqət, həm də böyük cəfakeşlik, zəhmətsevərlik, mərdlik, qəhrəmanlıq, mətinlik tələb edir".*** Bu gün Heydər Əliyev adına Hərbi Liseyin kursantlarına baxarkən vətənpərvər, dövlətinə və xalqına sədaqətli, mərd və cəsur Azərbaycan gəncliyini görür, gələcəyimiz olan bu gəncliklə qürur hissi keçiririk.

Ali Məclisin Sədri kursantlara müraciət edərək demişdir: Gənclərin yaxşı təhsil alması və peşə sahibi olması ölkənin gələcək inkişafını şərtləndirən başlıca amildir. Hər bir gənc harada yaşamasından və fəaliyyət göstərməsindən asılı olmayaraq mütləq bir peşə öyrənməlidir. Ümummilli liderimiz isə tövsiyə edirdi ki, zabit olmaq, vətəni qorumaq peşəsi bu peşələrin hamısından yüksəkdə dayanır. Çünki zabit adını daşımaq böyük məsuliyyətdir və Azərbaycan ordusunun zabiti kimi xalqımıza və vətənimizə sədaqətlə xidmət etmək qarşınızda duran əsas vəzifədir.



*Ardı 2-ci səhifədə*

Bundan sonra da yaxşı təhsil almalı, hərb sənətinə dərindən yiyələnməli, bilik və təcrübənizi artırmalısınız. Gələcəkdə harada xidmət etməyinizdən asılı olmayaraq, unutmamalısınız ki, siz müstəqil Azərbaycanın qurucusu, ümummilli liderimiz Heydər Əliyevin adını daşıyan hərbi liseyin məzunlarısınız. Bu adı daim uca tutmalı, onu nümunəvi xidmətinizlə doğrultmalısınız.

Ali Məclisin Sədri liseyin kursantlarına və məzunlara bundan sonrakı hərbi təhsil illərində və gələcək hərbi xidmət dövründə uğurlar arzulamışdır.

Sonra Ali Məclisin Sədri liseyin əlaçı kursantlarına attestatları təqdim etmiş, zabit, müəllim və kursantları mükafatlandırmışdır.

Kursant Gündüz Babazadə təhsil ocağının rəmzi kötüyünə xatirə lövhəsi vurmuşdur.

Orkestrin müşayiəti ilə "Hərbi lisey marşı" ifa edilmiş, şəxsi heyət təntənəli marşın sədaları altında nizami addımlarla tribunanın önündən keçmişdir.

Ali Məclisin Sədri ümummilli liderimiz Heydər Əliyevin hərbi liseydəki büstü önündə kursantlarla xatirə şəkli çəkdirmişdir.



Sonra Ali Məclisin Sədri hərbi liseydə kursantların yaşayışı, qidalanması, tədrisin keyfiyyəti və xidmətin təşkili ilə maraqlanmışdır.

Bildirilmişdir ki, hərbi liseydə əsaslı təmir işləri aparılmış, kursant yataqxanası və tədris korpusu müasir tələblər səviyyəsində qurulmuşdur. Yataqxana binasında kursantlar üçün müasir məişət şəraiti yaradılmış, yeni yataq dəstləri qoyulmuşdur. Burada kursantların asudə vaxtının səmərəli təşkili də təmin edilmiş, istirahət zalında təbiət və idman guşələri yaradılmışdır. Kursantlar gündəlik mətbuatı izləmək, şahmat və digər idman növləri ilə məşğul olmaq imkanlarına malikdirlər.

Ali Məclisin Sədrinə hərbi dərslərin mütəşəkkil keçirilməsi üçün istifadə olunan əyani tədris vasitələri barədə məlumat verilmişdir. Qeyd olunmuşdur ki, hərbi biliyin müxtəlif sahələrinə aid tədris vasitələri keçilən dərslərin dərindən mənimsənilməsinə, qazanılan biliklərin möhkəmləndirilməsinə və kursantlarda ilkin peşə vərdişlərinin formalaşmasına köməklik edir. Qərargah binasında yerləşən atəş hazırlığı sinfi və hərbi kabinə də bu baxımdan mühüm əhəmiyyətə malikdir. Burada müasir avadanlıqlar, kompüter dəstləri və 2 atış monitoru quraşdırılmışdır. Monitorlarda real şəraitə uyğun olaraq hədəflərin yaxın və uzaqlığını, müxtəlif hava, məhdud görmə və relyef şəraitini, eləcə də avtomatik və tək-tək atəş rejimini seçmək mümkündür. Atış başa çatdıqdan sonra nəticələr monitorda əks olunur və kursantların nişanalma bacarıqları haqqında məlumat verilir.





Ali Məclisin Sədri Heydər Əliyev adına Hərbi Lisey kursantlarının, eləcə də ümumtəhsil məktəblərinin şagirdlərinin muxtar respublikadakı atıcılıq mərkəzlərindən istifadəsinin əhəmiyyətini qeyd etmiş, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun, Təhsil, Gənclər və İdman nazirliklərinin bu sahədəki birgə fəaliyyətinin vacibliyini vurğulamışdır.



Binadakı Heydər Əliyev Muzeyində ümummilli lider Heydər Əliyevin ordu quruculuğu sahəsində həyata keçirdiyi tədbirlərdən bəhs edən kitablar, dahi şəxsiyyətin hərbi liseyə səfərlərini əks etdirən fotoşəkillər nümayiş etdirilir. Eksponatlar sırasında ötən əsrin 90-cı illərində Naxçıvanda milli ordunun formalaşdırılması ilə bağlı qəbul olunan taleyüklü qərarların surətləri, həmin dövrə aid fotoşəkillər xüsusi maraq doğurur.

Ali Məclisin Sədri yeməkxanada olmuş, kursantların qidalanması ilə maraqlanmışdır.

Tədris korpusuna baxış zamanı qeyd olunmuşdur ki, hərbi liseydə tədrisin keyfiyyətini daha da artırmaq üçün ardıcıl tədbirlər görülür. Binadakı sinif otaqları müasir avadanlıqlarla təmin edilmiş, ana dili kabinəsi, kimya, biologiya və fizika laboratoriyaları, kompüterlər quraşdırılan xarici dil kabinələri, idman zalı, elmi, bədii, hərbi və tarixi ədəbiyyatlarla təmin olunmuş zəngin kitabxana kursantların istifadəsinə verilmişdir. Hazırda kitabxana fondunda 17 mindən artıq ədəbiyyat və dərslik vardır. Hərbi liseydə dərslərin interaktiv formada keçirilməsi də diqqət mərkəzində saxlanılmış, fənn kabinələrində və sinif otaqlarında 8 elektron lövhə quraşdırılmış, humanitar və dəqiq elmlər üzrə elektron dərslik bazası yaradılmışdır.

Bina ilə tanışlıqdan sonra hərbi liseyin müəllimləri ilə görüşən Ali Məclisin Sədri demişdir: Heydər Əliyev adına Hərbi Liseydə dərs demək böyük şərəf və bir o qədər də məsuliyyətdir. Çünki siz ölkəmizin gələcək müdafiəçilərini hazırlayırsınız. Yaradılan şərait, o cümlədən liseydə vətənpərvər kursantların təhsil alması pedaqoji heyətin üzərinə mühüm vəzifələr qoyur. Liseyin müəllimləri bundan sonra da kursantların təhsilinə, nizam-intizamına, fiziki hazırlıqlarının artırılmasına diqqət yetirməli, müəllim-kursant münasibətlərində fərdi yanaşma üstün istiqamət kimi götürülməlidir. Bu gün istər ali hərbi məktəblərdə təhsil alan, istərsə də Azərbaycan Silahlı Qüvvələrində xidmətlərini davam etdirən liseyin məzunları öz nizam-intizamları, vətənpərvərlikləri, bilik və bacarıqları ilə seçilirlər.

Ali Məclisin Sədri kursantların bilikli və vətənpərvər böyüdülməsi sahəsindəki səmərəli fəaliyyətlərinə görə hərbi liseyin müəllimlərinə təşəkkür etmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Ordubadda sığorta işi ilə bağlı tədbir keçirilib

**İyunun 16-da Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyi Ordubad Rayon İcra Hakimiyyəti ilə birgə "Sığorta fəaliyyəti, görülmüş işlər və qarşıda duran vəzifələr" mövzusunda tədbir keçirib.**

Ordubad Rayon İcra Hakimiyyətində keçirilən tədbiri icra başçısı Elşad Məmmədov açaraq son illərdə rayonda sığorta sahəsində görülmüş işlərdən danışıb.

Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyinin Baş direktoru Hikmət Əsgərov çıxış edərək sığorta olunmağın vacibliyindən danışıb, vaxtında sığortalanmağın baş verən bədbəxt hadisələr zamanı faydalarını diqqətə çatdırıb. Baş direktor icbari və könüllü sığortaların əhəmiyyətindən də bəhs edərək bu sahədə Ordubad rayonunda müəyyən işlər görüldüyünü bildirib. Çıxışda avtonəqliyyat sahiblərinin mülki məsuliyyətinin icbari sığortası, daşınmaz əmlakın icbari sığortası, eləcə də könüllü sığortalardan ev əmlakının sığortası, avtonəqliyyat vasitələrinin tam sığortası, fərdi qəza sığortası, mal-qaranın sığortasının hüquqi və fiziki şəxslər üçün nə dərəcədə əhəmiyyətli olduğu konkret baş vermiş hadisələr ətrafında təhlil edilib. Baş direktor Ordubad rayonunda sığorta fəaliyyəti sahəsində görülmüş işləri təhlil edərək daşınmaz əmlakın icbari sığortası, avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası, ev əmlakı sığortası, fərdi qəza sığortası və digər sığorta növləri üzrə görülmüş işlərdən və qarşıda duran vəzifələrdən danışıb. Qeyd olunub ki, Ordubad rayonunda icbari qaydada sığorta olunmalı olan daşınmaz əmlakın icbari sığortası, avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası üzrə hələ də sığorta olunmayan hüquqi və fiziki şəxslər vardır. Buna görə də aidiyyəti qurumlarla birgə əlavə tədbirlər müəyyənləşdirilməklə Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənən icbari sığortalar üzrə hər bir sığorta obyekti sığortaya cəlb olunmalıdır. Qarşımızda duran vəzifələrdən biri də əhali arasında sığorta sahəsində maarifləndirmə tədbirlərini genişləndirmək, sığorta savadlılığını artırmaq, sığorta mədəniyyətini inkişaf etdirmək və yaradılmış sığorta ənənələrini dərinləşdirmək yolu ilə bütün vətəndaşlar üçün gözlənilməz qəza və digər hadisələrdən dəyə biləcək zərərlərin aradan qaldırılmasına sığorta təminatı yaratmaqdır.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Dövlət Yanğın Təhlükəsizliyi İdarəsinin Ordubad Rayon Şöbəsinin və Ordubad Rayon Polis Şöbəsinin Dövlət Yol Polisi bölməsinin nümayəndələri görülmüş işlər barədə məlumat veriblər.

***Muxtar respublika sakinlərinin taxıl məhsullarına olan tələbatının daxili imkanlar hesabına ödənilməsi məqsədilə həyata keçirilən tədbirlər cari ildə də öz bəhrələrini verməkdədir.***

## Taxıl zəmilərində bol məhsul yetişdirilib

Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyindən aldığımız məlumata görə, cari ilin məhsulu üçün ötən ilin payızında və 2015-ci ilin yazında 36 min 237 hektar sahədə taxıl əkilib. Bunun 26 min 746 hektarını buğda, 9 min 491 hektarını arpa təşkil edir. Mövsüm ərzində əkin sahələrinə aqrotexniki qulluq diqqət mərkəzində saxlanılıb.

Bir neçə gündür ki, taxıl tədarükünə başlanılıb. Bu günədək 800 hektardan artıq sahənin taxılı tədarük olunub. Taxıl tədarükünə, hələlik, 50-yə yaxın kombayn cəlb edilib. Yığılmış məhsulun daşınması üçün də tədbirlər həyata keçirilib, kifayət qədər texnika ayrılıb. Məhsul tədarükünə və daşınmasına cəlb edilən texnikalar əvvəlcədən işlək vəziyyətə gətirilib, kifayət qədər yanacaq və ehtiyat hissələr əldə olunub. Bu isə minbir zəhmətlə hasilə gətirilən məhsulun vaxtında toplanılmasına əminlik yaradıb.

Taxıl tədarükünə ilk olaraq Ordubad rayonunda başlanılıb. Rayonun Dəstə, Vənənd, Düylün, Aza kəndlərində ilk günlərin nəticələri belə deməyə əsas verir ki, sahələrdə bol məhsul yetişdirilib, çəkilən zəhmət hədər getməyib. Culfa rayonunun Yaycı, Gülüstan, Ərəzin, Camaldın, Bənəniyar, Babək rayonunun Nehrəm, Çeşməbasar, Yarımca, Güznüt, Kərimbəyli, Araz, Nəcəfəlidizə, Qahab, Cəhri, Kəngərli rayonunun Böyükdüz, Şahtaxtı, Qıvraq, Xok, Təzəkənd, Çalxanqala, Şərur rayonunun Aşağı Daşarx və başqa yaşayış məntəqələrində taxıl tədarükü sürətlə davam etdirilir.

Məhsul yığımında üzləşilə biləcək çətinliklərin təzliklə aradan qaldırılmasını təmin etmək üçün rayonlarda təşkil edilən qərargahlara hərtərəfli şərait yaradılıb.

**Xəbərlər şöbəsi**

18 iyun İnsan Hüquqları Günüdür

# Muxtar respublikada insan hüquqlarının qorunması dövlət siyasətinin əsas tərkib hissəsini təşkil edir

***Ulu öndər Heydər ƏLİYEV:** Bəşər sivilizasiyasının ən müdrik kəşflərindən sayılan insan hüquqları bu gün hamının anladığı və ya anlamalı olduğu əvəzsiz nailiyyətdir. İnsan hüquqlarına hörmət, insan hüquqlarının qorunması müasir dünyaya qovuşmağın əsas yoludur.*

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2007-ci il 18 iyun tarixli “Azərbaycan Respublikasında İnsan Hüquqları Gününün təsis edilməsi haqqında” Sərəncamına əsasən, hər il iyunun 18-i ölkəmizdə İnsan Hüquqları Günü kimi qeyd edilir.

Azərbaycanın dünyada müstəqil, hüquqi, demokratik dövlət kimi tanınması, ölkədə insan hüquq və azadlıqlarının təmin edilməsi və müdafiəsi ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndərimiz tərəfindən həyata keçirilən hüquq islahatları dövlətçiliyimizin möhkəmləndirilməsinə, insan hüquq və azadlıqlarının müdafiəsinə yönəlmiş yeni hüquq sisteminin formalaşmasına real zəmin yaratmışdır. Dahi liderin 1993-cü ildə moratorium qoyduğu ölüm hökmü 1998-ci ildə tamamilə ləğv edilmiş, bununla da, Azərbaycan, bütövlükdə, Şərqdə bu qətiyyətli və tarixi qərarı verən ilk ölkə kimi tarixə düşmüşdür. Bu, ölkəmizin hələ Avropa Şurasına üzv qəbul olunmadığı dövrlərdə insan hüquqları sahəsində atılan mütərəqqi addımlardan biri idi. Azərbaycan BMT-nin İnsan Hüquqları Ümumi Bəyannaməsinə və digər beynəlxalq konvensiyalara da qoşulmaqla insan hüquqları sahəsində beynəlxalq miqyasda təsbit olunmuş prinsipləri əsas götürdüyünü nümayiş etdirmişdir.

1995-ci il noyabrın 12-də qəbul edilən Azərbaycan Respublikasının Konstitusiyasında insan hüquq və azadlıqlarının təminatı dövlətin ali məqsədi kimi ön plana çıxmışdır. Konstitusiyanın 48 maddəsinin sırf insan və vətəndaş hüquq və azadlıqlarını özündə əks etdirməsi, ilk növbədə, ölkəmizdə bu sahənin prioritet məsələ olduğunu bir daha təsdiq edir. Ümummilli liderimiz Heydər Əliyevin 1998-ci il 18 iyun tarixli Sərəncamı ilə “İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı”nın qəbul edilməsi isə Konstitusiyanın müddəalarından irəli gələn tələblərə, ölkəmizin qoşulduğu konvensiyalara, qəbul edilən qanunvericilik aktlarına müvafiq olaraq insan hüquqlarının müdafiəsi sahəsində görülən işlərin səmərəliliyini artırmış və qanunvericilik bazası daha da təkmilləşdirilmişdir.

Əsası ulu öndərimiz tərəfindən qoyulmuş insan hüquq və azadlıqlarının qorunması işi bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dövlət başçısının 2006-cı il 28 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planı” və 2011-ci il 27 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı” ölkəmizdə insan hüquqlarının qorunması sahəsində həyata keçirilən dövlət siyasətinin tərkib hissəsi kimi mühüm əhəmiyyətə malikdir. Milli Fəaliyyət Proqramının qəbulundan sonra ölkəmizdə insan hüquqlarının müdafiəsi sahəsində fəaliyyət konsepsiyası təkmilləşdirilmiş, insan hüquq və azadlıqlarının müdafiəsi sisteminin davamlı inkişafı təmin edilmişdir.

Demokratik dövlət quruculuğunun ən mühüm amili olan insan hüquq və azadlıqlarının müdafiəsinin təmini ilə bağlı ölkəmizdə həyata keçirilən tədbirlər Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında da uğurla davam etdirilir. Ölkə başçısının “Naxçıvan Muxtar Respublikasında hüquq institutlarının inkişafı haqqında” 2006-cı il 2 noyabr tarixli Fərmanı muxtar respublikada bu istiqamətdə inkişafı təmin etmişdir. Belə ki, fərmanın qəbul edilməsindən ötən dövr ərzində məhkəmə orqanlarının maddi-texniki bazası möhkəmləndirilmiş, alternativ müdafiə mexanizmi kimi Müvəkkil təsisatının fəaliyyəti təmin edilmiş, məhkumların hüquqlarının daha səmərəli müdafiəsi məqsədilə Penitensiar Xidmətin fəaliyyəti təkmilləşdirilmiş, əhalinin keyfiyyətli hüquqi yardımla təmin edilməsi üçün vəkillik institutunun hüquqi statusu müəyyən edilmişdir.

Muxtar respublikada vətəndaşların konstitusion hüquq və azadlıqlarının təmin edilməsi ilə yanaşı, əhalinin müxtəlif sosial qruplarının hüquqlarının müdafiəsi istiqamətində də zəruri işlər görülür. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2012-ci il 24 may tarixli Fərmanı ilə təsdiq olunmuş “Naxçıvan Muxtar Respublikasında uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarəti Qaydası”na uyğun olaraq, uşaq müəssisələrində uşaqların qanunvericiliklə müəyyən edilmiş hüquq və mənafelərinin qorunması, uşaq hüquqlarının təmin edilməsi üçün əlverişli mühitin yaradılması və uşaq hüquqlarının pozulması hallarının aradan qaldırılması məqsədilə ardıcıl tədbirlər görülmüş, uşaqların elektron məlumat bankının yaradılmasına başlanılmışdır. Bundan başqa, muxtar respublikada uşaqların peşə məktəblərinə cəlbi, istedadlarının üzə çıxarılması, intellektual və mənəvi inkişafı, asudə vaxtlarının düzgün təşkili, eləcə də cəmiyyətin ictimai-mədəni həyatındakı iştirakını təmin etmək məqsədilə də ardıcıl tədbirlər həyata keçirilir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2013-cü il 18 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmiş “2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbi üzrə Dövlət Proqramı” da bu istiqamətdə atılan növbəti mühüm addımlardandır. Proqramda inklüziv və məsafədən təhsil üçün əsaslı zəminin yaradılması, sağlamlıq imkanları məhdud uşaqların təhsilinin səmərə və keyfiyyətinin yüksəldilməsi və bu sahədə müvafiq pedaqoji kadr hazırlığının təkmilləşdirilməsi məsələləri öz əksini tapmışdır. Sağlamlıq imkanları məhdud uşaqların digər uşaqlarla bərabər təhsil hüquqlarının təmin olunması məqsədilə qəbul olunan bu proqramın uğurlu icrası sağlamlıq imkanları məhdud şəxslərin cəmiyyətə inteqrasiyası istiqamətində yeni mərhələnin başlanğıcını qoymuşdur. Belə ki, 2014-cü il oktyabrın 1-də Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində Distant Tədris Mərkəzi istifadəyə verilmiş, əqli və fiziki imkanları ümumtəhsil müəssisələrində təhsil almağa imkan verməyən və hərəkət qabiliyyətinin məhdudluğu səbəbindən ümumtəhsil müəssisələrinə gedə bilməyən uşaqların təhsil almaq hüququ təmin edilmişdir.

Muxtar respublikada qadın hüquqlarının müdafiəsi ilə bağlı da mühüm işlər görülmüşdür. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2007-ci il 28 sentyabr tarixli Fərmanı ilə Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin yaradılması muxtar respublikada qadınlara verilən hərtərəfli dəstəyin, onların hüquqlarının müdafiə edilməsi istiqamətində həyata keçirilən tədbirlərin daha bir göstəricisidir. Bu gün muxtar respublikada qadınların ictimai fəallığının artırılması, dövlət idarəetməsi, habelə seçkili orqanlarda təmsil olunması, bir sözlə, bərabərlik hüququnun təmin olunması istiqamətində tədbirlər uğurla davam etdirilir.

Məhkumların hüquqlarının müdafiəsinin etibarlı təmin edilməsi də insan hüquqlarının qorunması sahəsində mühüm əhəmiyyət daşıyır. Muxtar respublikada məhkumların hüquqlarının daha etibarlı təminatı, sosial reabilitasiyası, məşğulluğu, asudə vaxtlarının təşkili, onlara tibbi yardımın göstərilməsi daim diqqət mərkəzində saxlanılmış, Kəngərli rayonu ərazisində Qarışıq Rejimli Cəzaçəkmə Müəssisəsi tikilərək istifadəyə verilmişdir. Bu müəssisədə məhkumların, təqsirləndirilən şəxslərin saxlanılması şəraiti ilə bağlı müasir meyarlar tətbiq olunmuş, onların hüquqlarının daha da yüksək səviyyədə təmin olunması, məhkəmə baxışının və qərarlarının vaxtında icra edilməsi üçün əlverişli şərait yaranmışdır.

Sosial-iqtisadi inkişafın keyfiyyətcə yeni mərhələsini yaşayan Naxçıvan Muxtar Respublikasında son illər əhalinin həyat səviyyəsinin davamlı olaraq yüksəlməsi, onların etibarlı sosial müdafiəsinin təşkili, aztəminatlı, xüsusi qayğıya ehtiyacı olanların sosial təminatlarının gücləndirilməsi istiqamətində uğurlu nəticələr əldə edilmişdir. “Naxçıvan Muxtar Respublikasının Regional İnkişaf Proqramı (2005-2008-ci illər)”, “Naxçıvan Muxtar Respublikasında Məşğulluq Strategiyası”nın həyata keçirilməsi üzrə Dövlət Proqramı (2007-2010-cu illər)” və Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı dövlət proqramlarının icrası infrastrukturun genişlənməsinə, sosial xidmətlərin keyfiyyətinin yüksəlməsinə səbəb olmuşdur.

Hər bir sivil cəmiyyətdə insan hüquqlarının qorunmasının başlıca meyarlarından biri də söz, mətbuat və informasiya azadlığının təmin olunması hesab olunur. Hazırda muxtar respublikada söz və mətbuat azadlığı etibarlı qorunur, kütləvi informasiya vasitələri əməkdaşları üçün lazımi şərait yaradılır. Son illər teleradio və qəzetlərin iş şəraiti xeyli yaxşılaşdırılmış, jurnalistlərin sərbəst fəaliyyəti təmin edilmişdir. Bununla yanaşı, əhalinin informasiya almaq və bunun ən çevik forması olan internetdən istifadə imkanları artırılmışdır. Artıq Naxçıvanın bütün şəhər, qəsəbə və kəndlərində sakinlər genişzolaqlı və sürətli internetdən, IP və rəqəmsal televiziya yayımından, bütün növ rabitə və digər elektron xidmətlərdən istifadə edirlər.

Müasir dövrdə əmək ehtiyatlarının əmək bazarına uyğun formalaşdırılması və onlardan səmərəli istifadə vətəndaşların əmək hüquqlarının təmin olunmasında mühüm əhəmiyyət kəsb edir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2013-cü il 18 dekabr tarixli Sərəncamı ilə təsdiq edilən “2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı” işaxtaran vətəndaşların sosial müdafiəsinin gücləndirilməsinə geniş imkanlar açmışdır.

*Muxtar respublikada Konstitusiyamızda təsbit edilmiş insan hüquq və azadlıqlarının daha etibarlı təmin edilməsi istiqamətində işlər daim diqqət mərkəzində saxlanılacaq, bu sahədə səmərəli hüquqi mexanizmlərin tətbiqi bundan sonra da davam etdiriləcəkdir.*

***Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatının mətbuat xidməti***

# Naxçıvan şəhərində “Nuh yurdu” restoranı istifadəyə verilmişdir

**Xalqımızın ümummilli lideri Heydər Əliyevin rəhbərliyi ilə başlanmış genişmiqyaslı sosial-iqtisadi islahatlar nəticəsində iqtisadiyyatın dinamik inkişafının əsası qoyulmuşdur. Həyata keçirilən islahatların başlıca məqsədi isə güclü iqtisadiyyata malik müstəqil dövlətin qurulması və inkişaf etdirilməsi olmuşdur. İqtisadi sahədə həyata keçirilən tədbirlər bazar iqtisadiyyatı mexanizmləri əsasında sahibkarlıq fəaliyyətinin genişləndirilməsinə yönəldilmişdir. Bu sahədə görülən işlərin nəticəsidir ki, Naxçıvan Muxtar Respublikasında da özəl sektorun inkişaf etdirilməsinə böyük diqqət göstərilmiş, yeni müəssisələrin qurulmasına, iş yerlərinin açılmasına nail olunmuşdur.**

Bu tədbirlərin davamı kimi, iyunun 16-da Naxçıvan şəhərində “Nuh yurdu” restoranının açılış mərasimi keçirilmişdir. Müəssisənin rəhbəri Tağı Əsgərov məlumat vermişdir ki, “Nuh yurdu” restoranı muxtar respublikada sahibkarlığa göstərilən dövlət qayğısının nəticəsində fəaliyyətə başlamışdır. Naxçıvan şəhərindəki “6-cı” məhəllədə yerləşən restoran şəhər sakinlərinə, eləcə də bura gələn qonaqlara milli mətbəx nümunələrimizin tanıdılması, təbliğ olunması və yüksək xidmət göstərilməsi məqsədilə yaradılmışdır. Restorana gələn qonaqlar burada ət və balıq yeməkləri, həmçinin çay və digər sərinləşdirici içkilər sifariş edə, açıq və örtülü oturma yerlərindən bəhrələnə bilərlər.

Açılış mərasimində iştirak edən Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Vüqar Səfərov, Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat və Sənaye naziri Famil Seyidov, Vergilər naziri Əli Mahmudov, Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin sədri Bəxtiyar İsmayılov çıxış edərək “Nuh yurdu” restoranının fəaliyyətə başlamasını muxtar respublikada sahibkarlığa göstərilən dövlət qayğısının təcəssümü kimi dəyərləndirmiş, sahibkara uğurlar arzulamışlar.

Qeyd edək ki, ümumi ərazisi 8624 kvadratmetr olan “Nuh yurdu” restoranı gölətrafı kafedən, otaqları müxtəlif quruluşa və dizayna malik iki və üçmərtəbəli restoran binalarından və Nuhun gəmisini xatırladan gəmi maketli kafe-restorandan ibarətdir.

Gölətrafı kafe su üzərində düzəldilmiş 1 ədədi hərəkətli olmaqla, 7 ədəd oturma yerindən ibarətdir. Döşəmələrin şəffaf şüşədən olması su və suda bəslənən canlılara eyni atmosferdə olmağa imkan verir.





İkimərtəbəli restoran binasının birinci mərtəbəsində 8 ədəd otaq yerləşir. “Kənd otağı”, “Şərq otağı” və “Müasir otaq” adlandırılan otaqların daxili dizaynı və quruluşu adlarına görə uyğunlaşdırılmışdır. İkinci mərtəbədə isə hər biri 50 nəfərlik olan iki banket zalı fəaliyyət göstərir. Binanın tavanı şüşə örtüklə örtülmüşdür ki, fəsillərə uyğun olaraq bu örtükləri açıb-bağlamaq mümkündür.

Üçmərtəbəli restoran binası özündə müasir dizayn elementlərini cəmləşdirir. Binanın birinci mərtəbəsində kafeteriya fəaliyyət göstərir. İkinci mərtəbədə balıqdan hazırlanmış yeməklər, üçüncü mərtəbədə isə ət və ətdən hazırlanmış, eyni zamanda digər yeməklər təklif olunur. Burada eyni zamanda 500 nəfər qonağa xidmət göstərmək mümkündür.

Gəmi maketli kafe isə klassik üslubda ağacdan düzəldilmiş masa və oturacaqları ilə diqqəti çəkir. Kafe üç açıq, iki örtülü salondan ibarətdir. Burada əsasən, müştərilərə sərinləşdirici içkilər təklif olunur.

Bundan əlavə, restoranın ərazisində balıq yetişdirmək üçün ayrılmış bölmədə 8 hovuz yerləşir. Hovuzların hər birində 4 ton balıq saxlamaq mümkündür. Hazırda burada farel, sazan, osetrin və soman balıqları yetişdirilir. Yaxın gələcəkdə digər növ balıqların saxlanılmasına da başlanılacaqdır ki, bu da ilin bütün fəsillərində restorana gələn müştərilərə təzə balıqlardan hazırlanmış yeməklər təklif etməyə imkan verəcək. Qeyd edək ki, balıqları seçmək və tutmaq burada müştərilərin öz istəyinə buraxılır.

Obyektdə digər maraqlı yerlərdən biri də ərazidə yerləşən kəhrizin ətrafında qurulmuş otaqlardır. Bir ədəd VİP otaq kəhrizin üzərində, digər üçü isə ətrafında yerləşir. Klassik tərzdə qurulmuş bu otaqlar da müştərilərin marağına səbəb olacaqdır.

Restoranın ərazisində yaşıllıqlar salınmış, oturacaqlar qoyulmuşdur. Müasir işıqlandırma sistemi ilə təchiz olunmuş obyekt tezliklə əcnəbi qonaqların da ən çox üz tutduqları ünvanlardan olacaqdır.

**Səbuhi HƏSƏNOV**

# dünən — Heydər Əliyev adına Hərbi Lisey — bu gün





***15 İyun – Milli Qurtuluş Gününü muxtar respublikamız rəngarəng bayram libasında və yüksək ovqatda qeyd etdi. Elə həmin gün şəhər və rayonlarımızda rəngarəng konsert proqramları təşkil olundu. Konsertlərdə paytaxt Bakı şəhərindən dəvət olunmuş müğənnilərin ifa etdikləri mahnılar muxtar respublika sakinlərinin bayram sevincinə əlavə sevinc qatdı, onların könüllərini oxşadı. Azərbaycan Respublikasının Əməkdar artisti Aybəniz Haşımova da dəvət olunanlar içərisində idi. Sevincimizə sevinc qatmağa gələn sevimli müğənnimizi bayram münasibətilə təbrik etdik, həm də səfər təəssüratlarını öyrəndik. Müğənni Naxçıvan insanlarına, Naxçıvan torpağına vurğunluğunu belə ifadə etdi:***

## Naxçıvanda mədəniyyətin inkişafına böyük qayğı göstərilir



– Naxçıvana ikinci gəlişimdir. Birinci dəfə 2012-ci ildə Heydər Əliyev Sarayında konsert proqramı ilə çıxış etmişəm. Belə təmiz və səliqəli şəhəri mən başqa yerdə görməmişəm. Şəhərin sakitliyi insanı valeh edir. Doğrudan da, füsunkar və əsrarəngiz diyarınız var. Hərdən söz düşəndə tanışlarıma deyirəm ki, Naxçıvana köçüb orada yaşamaq istəyirəm.

Mədəniyyət adamı kimi deyə bilərəm ki, burada konsert verməkdən zövq alıram. 2012-ci ildə Heydər Əliyev Sarayındakı konsertdə arada istirahət etməyim üçün fasilələr ayrılmışdı. İnanın, mənimlə naxçıvanlı tamaşaçılar arasında elə gözəl ünsiyyət yaranmışdı ki, səhnədə vaxtın necə keçdiyini hiss etməmişdim. Onu demək istəyirəm ki, naxçıvanlılar sənətə və sənətçiyə dəyər verirlər.

Mən Naxçıvana birinci dəfəki səfərimin təəssüratından uzun müddət ayrıla bilməmişdim. Bu gün isə mən Babək rayonunda, özü də əlamətdar gündə konsert proqramı ilə çıxış etdim. Yenə də həmin təəssüratlar içərisindəyəm. Konsertdən əvvəl Babək qəsəbəsi ilə qısa tanış oldum. Burada gördüyüm mədəniyyət müəssisələri məni valeh etdi. Gördüm ki, təkcə Naxçıvan şəhərində deyil, rayonlarda da mədəniyyətin inkişafı üçün böyük tədbirlər görülür.

***– Aybəniz xanım, siz Milli Qurtuluş Günü münasibətilə babəklilərin qonağısınız. Bu tarixi gün sizin üçün hansı dəyəri daşıyır?***

– Bu gün müqəddəs tarixə çevrilən, Azərbaycanın tarixinə qızıl hərflərlə yazılan bir gündür. Bu günü əziz bayram kimi qeyd edən xalqımız müstəqil dövlətimizin memarı və qurucusu, ümummilli liderimiz Heydər Əliyevin Vətən yolunda fədakarlığını və siyasi hünərini sonsuz minnətdarlıq hissi ilə xatırlayır. Ulu öndər Heydər Əliyev canını fəda etdi xalqına. Vətəni parçalanmaqdan qurtardı. İnsanların üzünə təbəssüm gətirdi, gülüş bəxş etdi. İndi budur, Azərbaycan dünyada tanınır. Onun Azərbaycanın daha xoş gələcəyi üçün hesablanmış siyasəti bu gün cənab Prezidentimiz İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Daha bir qürurverici məqam isə ondadır ki, biz bu günlərdə yazdığımız tarixlə varlığımızı dünyaya sübut etdik. Birinci Avropa Oyunlarını deyirəm. Dünya bizi bir daha tanıdı. Bütün bunlar ulu öndər Heydər Əliyevin müəllifi olduğu Milli Qurtuluşun bəhrələridir. Azərbaycanın hər bir vətənsevər övladı böyük qürur hissi keçirir ki, dahi Heydər Əliyevin siyasəti uğurla davam etdirilir: həm Azərbaycanda, həm də onun ayrılmaz bir parçası olan Naxçıvanda...

***Müsahibəni apardı:***
**Sara ƏZİMOVA**

## Naxçıvanda bioloji təbabət üzrə tədris proqramına start verilib

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi və Bakı şəhərində fəaliyyət göstərən Bioloji təbabət klinikasının təşkilatçılığı ilə iyunun 17-də Akademik Zərifə Əliyeva adına Naxçıvan Şəhər Poliklinikasında yerli həkimlər üçün bioloji təbabət üzrə "Modul A" tədris proqramına start verilib.***

Naxçıvan şəhərindəki səhiyyə müəssisələri və rayon mərkəzi xəstəxanaları həkimlərinin iştirak etdikləri tədbiri Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin Tibbi yardımın təşkili şöbəsinin baş məsləhətçi-pediatrı, Azərbaycan Respublikasının Əməkdar həkimi İbrahim Ağayev açaraq tədbir iştirakçılarını 17 iyun tibb işçilərinin peşə bayramı münasibətilə təbrik edib. Bildirib ki, səhiyyə sisteminin günün tələblərinə uyğunlaşdırılması, müasir tibb strukturunun yaradılması muxtar respublikada həyata keçirilən sosial islahatların mühüm tərkib hissəsidir. Bunun nəticəsidir ki, istər Naxçıvan şəhərində, istərsə də ən ucqar dağ kəndlərində əhaliyə nümunəvi tibbi xidmət göstərilir. Həkimlərin peşə vərdişlərinin artırılması məqsədilə seminar və konfransların keçirilməsi diqqət mərkəzində saxlanılır. Bu gün keçirilən növbəti tədris proqramı da həmin tədbirlərin davamıdır.

Bioloji təbabət klinikasının nümayəndəsi, professor Fikriyyə İbrahimova çıxış edərək bildirib ki, 2009-cu ildən fəaliyyət göstərən bu müəssisə ölkəmizdə bioloji üsullarla müalicənin tətbiqini qarşısına məqsəd qoyub. Bioloji təbabət orqanizmin özünüidarə və müdafiə sistemlərinin pozulmuş funksiyalarını bərpa edən, baş verən həmin xəstəliklərin səbəblərinin aradan qaldırılmasına yönəldilən müasir müalicə metodudur. Müalicədə yalnız təbii tərkibli dərman preparatlarından istifadə olunur, müalicə zamanı digər orqan və sistemlər zədələnmir. Naxçıvanda bu üsulun tətbiqi üçün may ayında "Bioloji təbabətin əsasları" mövzusunda elmi-praktik seminarlar keçirilib. Seminarlardan sonra növbəti mərhələ olaraq modulların keçirilməsi vacibdir.

Sonra tədris proqramının ilk məşğələləri keçirilib. Almaniyanın Viadrina Universitetinin Bioloji təbabət fakültəsinin müəllimi, təcrübəli mütəxəssis, terapevt, naturopat, bioloji təbabət üzrə ekspert Krabnitzer Marionun "Modul A" proqramı üzrə mühazirələri dinlənilib. Ekspert həyat təcrübəsinə əsaslanaraq bioloji təbabətin, tibbi profilaktikanın mühüm əhəmiyyət kəsb etdiyini bildirib, Hippokratın bu fikrini xatırladıb: "Xəstəliklər qəfildən göydən düşmür. Onlar gündəlik kiçik günahlarımızın nəticəsində əmələ gəlir. Qalaqlanmış yükü birdən-birə atın".

Tədbirdə slaydlar nümayiş olunub, dinləyicilərin sualları cavablandırılıb, onlara bukletlər paylanıb.

Tədris proqramı 3 gün davam etdiriləcək.

## "Koroğlunun Çənlibelə qayıdışı" tamaşası Babək rayonunda nümayiş olunub



***Dünən Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının kollektivi tərəfindən Adil Babayevin "Koroğlunun Çənlibelə qayıdışı" tamaşası Babək rayonunun teatrsevərləri qarşısında nümayiş etdirilib.***

Babək Rayon Mədəniyyət Evində nümayiş etdirilən tamaşada illər öncə baş verən hadisələr canlandırılır. Tarixilik, müasirlik və elmiliyin vəhdət təşkil etdiyi bu səhnə əsərində ölkəmizin təlatümlər, təhlükələr içərisində, daxili çəkişmələr, xarici təsirlər nəticəsində dağılmaq üzrə olduğu bir vaxtda xalqın və bir çox ovaxtkı dövlət rəhbərlərinin dəvəti, xahişi ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri, görkəmli dövlət xadimi Heydər Əliyevin Bakıya, ikinci dəfə ali hakimiyyətə qayıdışı əks olunur.

Qeyd edək ki, tamaşa Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu, Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyi və Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin təşkilatçılığı ilə təqdim olunmuşdur.

✍ **Səbuhi HÜSEYNOV**

## Sağlamlıq imkanları məhdud uşaqların Ağbulaq İstirahət Mərkəzində istirahəti davam edir

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2013-cü il 18 dekabr tarixli Sərəncamı ilə təsdiq edilən "2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbi üzrə Dövlət Proqramı"na uyğun olaraq, Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin təşkilatçılığı ilə sağlamlıq imkanları məhdud məktəbli uşaqların Ağbulaq İstirahət Mərkəzində istirahətləri davam edir.

Uşaqların istirahət günlərinin mənalı təşkili üçün müvafiq tədbirlər keçirilir. Belə ki, uşaqların iştirakı ilə çərpələng və tennis yarışları keçirilib, vətənpərvərlik mövzusunda filmlər nümayiş etdirilib, fiziki imkanlı məhdud ifaçılar uşaqlar qarşısında konsert veriblər. Eyni zamanda uşaqların təbiətdə gəzintisi təşkil olunub, onlar Şahbuz Rayon Tarix-Diyarşünaslıq Muzeyini ziyarət ediblər.

İyunun 17-də növbəti tədbirlər – dama yarışı və karaoke müsabiqəsi keçirilib, qaliblər mükafatlandırılıb.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

## Tibb işçilərinin dövri tibbi müayinələri başa çatıb

***Muxtar respublikanın səhiyyə müəssisələrində çalışan tibb işçilərinin may ayında start verilən dövri tibbi müayinələri başa çatıb.***

İldə iki dəfə keçirilən bu müayinələr cari mövsümdə Naxçıvan Muxtar Respublikası QİÇS-lə Mübarizə Mərkəzi tərəfindən bilavasitə rayonlarda təşkil olunub. Şərur, Culfa, Ordubad rayonlarından sonra mövsümün son müayinələri Babək, Kəngərli, Sədərək, Şahbuz Rayon Mərkəzi xəstəxanalarında və ərazi həkim ambulatoriyalarında, feldşer-mama məntəqələrində, eləcə də Naxçıvan Dövlət Universitetində aparılıb. Bütövlükdə, mövsüm ərzində 1635 nəfər həkim və orta tibb işçisindən qan müayinələri götürülüb. Tibb işçiləri ilə yanaşı, Gigiyena və Epidemiologiya mərkəzlərinin, gözəllik salonlarının işçiləri, universitetin professor-müəllim heyəti də aksiyaya cəlb ediliblər.

Onların HİV, hepatit B, C və qanla keçən digər xəstəliklərə görə analiz olunması üçün seroloji diaqnostikası aparılıb, nəticələr tibbi müayinə kartlarında öz əksini tapıb, yoluxucu xəstəliklərə yoluxma əlamətləri olan işçilər haqqında ərazi Gigiyena və Epidemiologiya mərkəzlərinə və Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinə məlumat verilib.

Aksiya çərçivəsində Naxçıvan Muxtar Respublikası Ağciyər Xəstəlikləri Dispanserinin həkimləri də dövri tibbi müayinələr aparıblar. Ağciyər vərəminin profilaktikası və ilkin vərəmin vaxtında aşkar edilməsi məqsədilə 959 nəfər tibb işçisi rentgen-flüoroqrafik müayinədən keçirilib, 12 nəfərdə xəstəliyə meyillilik aşkar olunub, 1 nəfər dispanser qeydiyyatına alınıb.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***


ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 463